## *"Ümumi səbəblərdən I dərəcə əlilliyi olan şəxslərə (gözdən əlilliyi olan şəxslər istisna olmaqla)*Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında[1]

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

*1. "Ümumi səbəblərdən I dərəcə əlilliyi olan şəxslərə (gözdən əlilliyi olan şəxslər istisna olmaqla) " Azərbaycan Respublikası Prezidentinin təqaüdü" təsis edilsin və onun aylıq məbləği 130 manat müəyyən olunsun.*[2]

2. Müəyyən edilsin ki, bu Fərmanın 1-ci hissəsi ilə təsis edilən təqaüdü dövlət büdcəsində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə nəzərdə tutulmuş xərclər hesabına həmin nazirlik ödəyir.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

4. Bu Fərman 2014-cü il aprelin 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 17 mart 2014-cü il
128

### İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 25 yanvar 2016-cı il tarixli **748** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 26 yanvar 2016-cı il, 17, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 01, maddə 70**)
2. 16 aprel 2018-ci il tarixli **1918** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 4, maddə 668**)
3. 15 aprel 2019-cu il tarixli **642** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 16 aprel 2019-cu il, 81, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 642**)
4. 14 avqust 2020-ci il tarixli **1136** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 15 avqust 2020-ci il, 160 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-cü il, 8, maddə 1039**)
5. 30 dekabr 2020-ci il tarixli **1228** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 7 yanvar 2021-ci il, 2** )

### FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 15 aprel 2019-cu il tarixli **642** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 16 aprel 2019-cu il, 81 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 642**) ilə fərmanın adında "**Əlillik ümumi xəstəlik, hərbi xidmət dövründə xəstələnmə, əmək zədəsi və peşə xəstəliyi, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar, Çernobıl AES-də qəzanın ləğvi ilə əlaqədar səbəblərdən baş verdikdə I qrup əlilliyə görə sosial müavinət alanlara**" sözləri "**Ümumi xəstəliklə, hərbi xidmət dövründə xəstələnmə ilə, əmək zədəsi və peşə xəstəliyi ilə, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar, Çernobıl AES-də qəzanın ləğvi ilə bağlı səbəblərdən I qrup əlilliyi olan şəxslərə**" sözləri ilə əvəz edilmişdir.

14 avqust 2020-ci il tarixli **1136** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 15 avqust 2020-ci il, 160 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-cü il, 8, maddə 1039**) ilə fərmanın adında və 1-ci hissəsində "**qrup**" sözü "**dərəcə**" sözü ilə əvəz edilmişdir.

30 dekabr 2020-ci il tarixli **1228** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 7 yanvar 2021-ci il, 2** ) ilə adında "**xəstəliklə, hərbi xidmət dövründə xəstələnmə ilə, əmək zədəsi və peşə xəstəliyi ilə, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar, Çernobıl AES-də qəzanın ləğvi ilə bağlı səbəblərdən I dərəcə əlilliyi olan şəxslərə**" sözləri "**səbəblərdən I dərəcə əlilliyi olan şəxslərə (gözdən əlilliyi olan şəxslər istisna olmaqla)"** sözləri ilə əvəz edilmişdir.

[2] 25 yanvar 2016-cı il tarixli **748** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 26 yanvar 2016-cı il, 17 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 01, maddə 70**) ilə 1-ci hissədə "**60**" rəqəmləri "**66**" rəqəmləri ilə əvəz edilmişdir.

16 aprel 2018-ci il tarixli **1918** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 4, maddə 668**) ilə 1-ci hissədə "**66**" rəqəmləri "**73**" rəqəmləri ilə əvəz edilmişdir.

15 aprel 2019-cu il tarixli **642** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 16 aprel 2019-cu il, 81 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 642**) ilə 1-ci hissə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~1. "Əlillik ümumi xəstəlik, hərbi xidmət dövründə xəstələnmə, əmək zədəsi və peşə xəstəliyi, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar, Çernobıl AES-də qəzanın ləğvi ilə əlaqədar səbəblərdən baş verdikdə I qrup əlilliyə görə sosial müavinət alanlara Azərbaycan Respublikası Prezidentinin təqaüdü" təsis edilsin və onun aylıq məbləği *73* manat müəyyən olunsun.~~

30 dekabr 2020-ci il tarixli **1228** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 7 yanvar 2021-ci il, 2** ) ilə 1-ci hissədə "**xəstəliklə, hərbi xidmət dövründə xəstələnmə ilə, əmək zədəsi və peşə xəstəliyi ilə, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar, Çernobıl AES-də qəzanın ləğvi ilə bağlı səbəblərdən I dərəcə əlilliyi olan şəxslərə**" sözləri "**səbəblərdən I dərəcə əlilliyi olan şəxslərə (gözdən əlilliyi olan şəxslər istisna olmaqla)"** sözləri ilə və "**100**" rəqəmləri "**130**" rəqəmləri ilə əvəz edilmişdir.